# Qibləgahı Vətən...

İnsanın həyatda üzləşdiyi ən böyük itki doğmalarının, yaxınlarının ölümüdür. Kiminsə yaralanıb əlil olması da can itkisi, bədən ağrısı-dır. Bütövlükdə, xalqın müqəddəs savaşda şəhidlər verməsi, döyüşçülərinin yaralanıb əlilə çevrilməsi Vətənin canından can qopması, yurdun bədəninin xəsarət almasıdır.

Vətən təkcə üstündə gəzdiyimiz torpaq parçası deyil. Vətən altında şəhidlərin yatdığı, üstündə igidlərin gəzdiyi, hər an azadlığı uğrunda canını və qanını əsirgəməyəcəyin diyardır. Hər kəs öz doğulduğu yeri, boya-başa çatdığı məmləkəti sevməlidir.

Torpağın ağuşuna aldığı şəhidlər həmişə yaşayacaqlar. Onları xalqımız, Azərbaycan əsgəri yaşadacaq. Hər bir şəhid anası bilsin ki, onların qisası alınıb və alınmağa da davam edilir.

Doğum tarixlərinə baxıram, bir çoxu hələ ana quzusu-2000, 2001, 2002-ci il doğumlular. Əksəriyyət atəşkəs uşaqlarıdır- 1993, 1994, 1995, 1996...Rütbələri-polkovnik, polkovnik-leytenant, baş gizir, gizir, baş əsgər, əsgər! Doğum yerləri-Azərbaycanın dörd bir yanı, dörd bir yanının kəndləri, qəsəbələri. Milliyyətləri- azərbaycanlı, avar, ləzgi, tat, talış, rus...

Elşən Gündüz oğlu Dəmirli 15 oktyabr 1998-ci ildə Qəbələ rayonunun Nic qəsəbəsində dünyaya göz açıb. Orta təhsilini Qəbələ rayon Nic qəsəbə 3 saylı tam orta məktəbində almışdır. 2016-cı ilin oktyabr ayında müddətli həqiqi hərbi xidmətə yollanıb. Həqiqi hərbi xidməti Naxçıvan Muxtar Respublikasında yerləşən "N" saylı hərbi hissədə kəşfiyyatçı kimi başa vurub. 2020-ci ildə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq hərbi xidmətini davam etdirib. Mingəçevirdə yerləşən "N" saylı hərbi hissədə xidmət edib.



Hərbçi olmaq onun uşaqlıq arzusu idi. Atası nə qədər onu bu fikrindən yayındırmağa çalışsa da, o yenə də sevdiyi, arzusunda olduğu peşənin arxasınca gedir. Bu zaman isə Gündüz ata və Könül anaya oğullarına sadəcə xeyir-dua vermək düşür. Onun hər namazında etdiyi duası qəbul olunmuşdu. Sevincinin həddi-hüdudu yox idi.

Dərd içini doğrasa da,
Mərd gəzən şəhid anası.
Yerin-göyün ağrısıdı,
Sən dözən, şəhid anası.

Hər tökülən bir damla qan Ana Vətənimizin yarasına məlhəm oldu, torpaqlarımız suvarıldı. Üç minə yaxın Azərbaycan Əsgəri Uca Millətimizin şərəf, fəxarət, ləyaqət, qürur və ölməzlik rəmzinə çevrildi. Onların hər biri Zəfər tariximizin salnaməsinin müəllif və qəhrəmanı oldu. Azərbaycan Qadınının adı və Ana müqəddəsliyi Şəhid oğulların adı ilə bir daha ucaldı. Könül ana da bu analardan biridir. Dünyaya gətirdiyi körpəsini laylası ilə oxşayan, onun gələcək həyatını, xoş günlərini xəyalında canlandırsa da, ümidləri yarıda qırılan, sağ olsa da, ölümün özü qədər dəhşətli anlar yaşayan, övlad yanğısı ilə qovrulan anaya təsəlli kimi səbrli olmaq tövsiyəsi belə qiymət heç nə ilə ölçülməyən övlad itkisinin odunu söndürə bilmir. Ruha dönüb ucalıq əmanətini yaşadan əziz-xələfi ilə danışırmış kimi ciyərparəsi ilə söhbətləşir. Nakam övladının yarımçıq qalmış həyat yolunu xəyalında canlandırır, şam işığında günəş şüası axtarırmış kimi çabalayır.

Pərvanələrin dilini şamdan yaxşı bilən olmadığı kimi, anaların övlad həsrətini də ifadə etmək üçün söz tapılmır. Alnının yazısı ilə dünyaya gələn övladının haqq dünyasındakı taleyindən xəbərsiz olan anaların bu qisməti yoza bilmək imkanları da olmur. Hələ toy görməmiş, özünə ocaq qurmamış, ata-ana borcunu ödəməmiş övladların məzar daşından valideynlərinə səssiz baxışı sözlə ifadə oluna bilməyəcək qədər ağırdır.

Nakamlardan qalan təsəlli valideynlərinə şəhid anası, şəhid atası sözləridir.

Azərbaycan Ordusunun əsgəri olan Elşən Dəmirli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Ağdamın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Elşən hər fürsət tapdıqca ailəsi ilə danışar, hər şeyin yaxşı olduğunu deyərdi. Anası, atası və iki bacısı narahat olmasın deyə döyüş bölgəsindən kənarda olduğunu deyər və narahat olmamalarını tənbehləyərdi. Onun ən böyük arzusu idi vətənini düşmən tapdağından azad etmək, yağı düşməndən qisas almaq. 2020-ci ilin iyul döyüşləri zamanı general-mayor Polad Həşimovun şəhid olması ona da təsir etmiş və buna görə döyüşlərdə də ən öndə gedirdi. Döyüşlər başladıqdan iki gün sonra yəni, sentyabrın 29-u Dəmirli Elşən şəhidlik zirvəsinə ucalır. Talış-Suqovuşan istiqamətində namərd düşmənin gülləsinə qurban gedən Dəmirli Elşənin bayrağa bükülmüş tabutu doğma evinə gətirildikdə isə ailəsi buna inanmır və hələ də oğulları bir gün gələcək ümidi ilə yolunu gözləyirlər.

Baş daşındakı şəkili ilə valideynlərini səssizcə «salamlayan», bəzən gülümsər baxışları ilə onlara təskinlik verən Elşən, yoxluğu ilə belə daim qışın sazağını yaşadan ana-ata qəlbinə hərarət gətirir. Ana əli ilə sığallanan məzarlar doğma ocağın istisi kimi haqq dünyasına qoşanların ruhunu rahatladır. Övladını tapşırdığı torpaqdan ayrılmaq istəməyəndə « Tanrının yazısını pozan olmaz» sözləri yada düşür. Haqqa tapınan analıq həsrəti Tanrının qisməti ilə razılaşır.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamına əsasən Elşən Dəmirli ölümündən sonra "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

Neçə sevgiləri, neçə toyları, neçə sevincləri yarımçıq qoyur müharibələr. Elşən də öz həyatını vətəninə qurban verdi. Vətən azadlığı uğrunda gəncliyini fəda etdi. "Təki Vətən sağ olsun!" deyərək, bir an olsun döyüşdən geri çəkilmədi.

Biz Qəbələnin hər dəqiqəsinə görə onlara borcluyuq-Şəhidlərimizə! Şəhidlər bizim bayrağımızdır, gerbimizdir, simvolumuzdur!

Vətənini qibləgah edən şəhidlərimiz, ruhunuz şad olsun!

**İlahə RƏHİMOVA,**
**"Qəbələ"**

# Qış mövsümündə dəm qazından zəhərlənmənin qarşısının alınması üçün qaydalara əməl edilməsi zəruridir

Son illər qış mövsümü ərzində müxtəlif şəraitdə dəm qazından zəhərlənmə hadisələrinin tez-tez qeydə alınması müşahidə olunur. Bir sıra hallarda ölümlə və insanların sağlamlıqlarına zərər vurulması ilə nəticələnən bu kimi hadisələrin qarşısının alınması və profilaktikası ilə bağlı qış mövsümünün başlanması ilə əlaqədar zəruri təhlükəsizlik qaydalarının öyrənilməsi, onlara əməl edilməsi və həmin qaydalardan irəli gələn tədbirlərin həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir.

Dəm qazı təbii qazın və digər yanacaq növlərinin (odun, kömür, kerosin və s.) natamam yanması səbəbindən əmələ gəlir və bu qarışıqlı qazın tənəffüs orqanlarına düşməsi insanların yüngül, orta, ağır dərəcəli zəhərlənməsinə və bəzi hallarda ölümünə səbəb olur. Təəssüflər olsun ki, spesifik rəngi, dadı, iyi olmayan və gözə görünməyən dəm qazı zəhərlənmə hiss olunmadan, sakit tərzdə, yanma prosesi olan yerdə, gündəlik həyatda insanları əhatə edən mühitdə baş verir. Ağır hallarda isə zəhərlənmə zamanı ürək-damar sisteminin funksiyası pozulduğundan ani ölüm halları baş verir. Mütəxəssislərin tədqiqatlarına əsasən məişət zəhərlənmələri arasında dəm qazı (CO) ilə zəhərlənmə birinci yerdə dayanır. Dəm qazının formalaşmasının əsas səbəbi - yanma zonasında oksigen çatışmazlığıdır. Dəm qazının insana təsiri mexanizmi ondan ibarətdir ki, o qana daxil olaraq hemoqlobin hüceyrələrinə təsir edir, ciyərlər vasitəsi ilə asanlıqla qana keçir, orada hemoqlobinlə birləşir, qana oksigen getməsini dayandırır, dəm qazının oksigenlə birləşməsi nəticəsində insan orqanizmində toxumalar oksigensizləşir, hipoksiya yaranır. Beləliklə, dəm qazı (CO) insan orqanizmini qidalandıran vacib hüceyrələrin məhv olmasına səbəb olur, ciddi zəhərlənmə bütün orqanlara, əsasən ürək və beyinə təsir edir.

Əksər hallarda yüngül və orta dərəcəli zəhərlənmələr ev şəraitində müalicə olunduğundan və tibb müəssisələrinə müraciət edilmədiyindən dəm qazının fəsadlarından əziyyət çəkənlərin sayının qeydə alınan hadisələrdən bir qədər artıq olması təxmin edilir.

Bu kimi hadisələrin təhlili göstərir ki, yandırılan yanacaq məhsullarının qalıqlarının xaric olması üçün yer olmadıqda və ya həmin yer tutulmuş olduqda, natamam yanma nəticəsində dəm qazı zəhərlənməyə səbəb olur. Göstərilən hadisələrin baş verməsinə bir çox hallarda müxtəlif yanacaq növlərinə aid qeyri-standart cihazların (işlədicilərin) istifadə olunması, eləcə də standarta cavab verən cihazların düzgün istifadə olunmaması, müvafiq qaydalara uyğun quraşdırılmaması səbəb olur. Bir qayda olaraq heç bir halda qeyri-standart işlədicilərdən istifadə olunmamalı, standart işlədicilərin iş prinsiplərinə ciddi əməl olunmalı, onların funksional quruluşuna müdaxilə edilməməli, hər hansı nasazlıq aşkarlanarsa aidiyyəti qurumlara, ixtisaslaşdırılmış müəssisəyə, professional ustaya müraciət olunmalıdır.

Bir qayda olaraq dəm qazından zəhərlənmə hallarına hər il noyabr ayının 15-də qış mövsümünə keçildikdən sonra rast gəlinir. Ötən il ərzində Qəbələ rayonunda qeydə alınan dəm qazından zəhərlənmə hadisələri bir çox hallarda su qızdırıcılarından, odun sobalarından düzgün istifadə olunmaması, otaqlarda nəfəsliklərin qapalı olması ilə əlaqəli olmuşdur.

Binaların, yaşayış yerlərinin qızdırılması üçün, eləcə də vanna otaqlarında istifadə olunan İran, Rusiya və digər ölkə istehsallı xalq arasında "kombi", "kolonka", "pyatiminutka" və sairə kimi adlandırılan hər bir qızdırıcı aparatın qazla təminatı sertifikata uyğun boru ilə təmin olunmalı, yanmış qazların çıxışı sərbəst, standarta uyğun, tələb olunan ölçülərə müvafiq qaydada qurulmalı, montaj olunmalı, işlənmiş qazların kənarlaşdırılması üçün nəzərdə tutulan şaxta, baca sistemləri mütəmadi qaydada qurum, kənar predmet və axarlılığı tutan maneələrdən təmizlənməli, mənzilin qızdırılması üçün mətbəx qaz plitələrindən, sobalarından istifadə edilməməli, qaz plitələri nəzarətsiz qoyulmamalı, mətbəx qaz plitələrinin üstündə hava sorucu (aspirator) sisteminin, qaz işlədicilərinin düzgün quraşdırılıb, müvafiq qaydalara uyğun istismarına diqqət yetirilməli, heç bir halda qaz işlədicisi bilavasitə duşun qəbul edildiyi otağa qoyulmamalı, qaz işlədicisi açıq məkanda qoyulmalı, duş olan vanna otağında mütləq nəfəslik kiçik ölçülü pəncərə, otağın qapısında isə kiçik diametrli dəliklər olmalı, təhlükəsiz duş qəbulu üçün nəfəslik hökmən açıq olmalıdır. Belə ki, dəm qazı ayrılması mövcud olduğu hallarda nəfəsliyin bağlı olması qazların hermetik qapalı mühitdə çox toplanmasına və bədbəxt hadisələrin baş verməsinə zəmin yarada bilər. Fərdi qaydada su qızdırıcısı ilə təmin olunan evlərdə duş qəbul edən şəxslərin, xüsusən də azyaşlıların hallarına yaxınları tərəfindən nəzarət edilməli, bu zaman mütəmadi olaraq suyun yox, məhz duş qəbul edənin səsini eşitməklə onun vəziyyəti yoxlanılmalıdır. Belə ki, dəm qazından zəhərlənmə hallarında insanlar narahatçılıq anlamadan huşunu itirir, duş əvvəlki qaydada axan suya xas olan səsi verməklə axmaqda davam edir, zərərçəkən isə yaxınlarının xəbəri olmadan bu mühitdə öldürücü qazla tənəffüs edir, bu onun zəhərlənməsinə gətirib çıxarır, zəhərli maddələrin artıq miqdarda orqanizmə daxil olması isə ölüm hadisələrinin baş verməsinə səbəb olur.

Zəhərlənmənin ilk anlarında hadisənin vaxtında aşkarlanması, ilkin tədbirlərin görülməsi zamanı zərərçəkənin sağlamlığına zərər vura biləcək təhlükə aradan qaldırıla bilər. İlk növbədə qazla zəhərlənmiş adam zəhərlənmə baş verən sahədən təmiz havaya çıxarılmalı, huşsuz olduğu halda ona süni tənəffüs verilməli, bədəninin açıq sahələrinə soyuq su vurulmalı, huşu aydındırsa maye verilməli, daha sonra tibb müəssisəsinə çatdırılmalı və sonrakı yardımlar həkimlər tərəfindən aparılmalıdır. Dəm qazı ilə zəhərlənmə astma, şəkərli diabet, qan təzyiqi xəstəliyi olanlara daha tez təsir göstərir, kəskin zəhərlənmə nəticəsində boğulmalar, infarkt, stenokardiya, bayılma, kollaps baş verə bilər.

Dəm qazından zəhərlənmə hadisələrinin baş verməməsi üçün yuxarıda qeyd edilən təhlükəsizlik qaydalarına ciddi əməl edilməli, insanların yaşadığı və əmək fəaliyyəti apardığı tikililərdə havadəyişmə yolları qış mövsümü başlamazdan əvvəl yoxlanılmalı, mövsüm ərəfəsində tüstü bacaları ən azı iki ayda bir dəfə təmizlənməli, su qızdırıcıları, mətbəx plitələrinin, sobaların texniki vəziyyəti yoxlanılmalı, onların istismarı müvafiq standartlara uyğunlaşdırılmalıdır.

Bu qaydalara əməl edilməsi insanlarımızın dəm qazından zəhərlənməsi hadisələri ilə üzləşməsinin qarşısını almaqla, onların həyat və sağlamlıqlarının qorunmasına xidmət edər.

**Nazim BABAYEV,**
**Qəbələ rayon prokuroru,**
**baş ədliyyə müşaviri.**